# Seyid İmadəddin Nəsimi irsinə bir nəzər

Ölkə prezidentinin 2019-cu ili Nəsimi ili elan etməsi şairin ədəbi, fəlsəfi fikirlərini daha dərindən oyrənməyə səy edən alimlərin, ədəbiyyatşunasların yoluna işıq salmışdır. Azərbaycan mətbuatında da dərc edilən məqalələrdə amalı yolunda şəhid olmuş şair-filosofun yaradıcılığı dərindən təhlil edilir, keçmiş tədqiqatların nəticələrinə yenidən baxılır və daha dəqiq araşdırmalar öz əksini tapır.




Tədqiqatcı-alim, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbirə Nemətzadənin 2017-ci ildə "Elm və təhsil" nəşriyyatında capolunmuş "Seyid İmadəddin Nəsimi irsinin tədqiqi məsələləri" kitabı ulu öndər Heydər Əliyevin 29 Dekabr 2000-ci il tarixli Azərbaycan xalqına müraciətinin təsirilə yazılmış, şairin irsinə yanaşma noqteyi-nəzərindən diqqəti cəlb edir. Müraciətdə deyilirdi: "Dünya sivilizasiyası tarixində silinməz izlər qoymuş Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Xətib Təbrizi, Imadəddin Nəsimi, Məhəmməd Füzuli kimi korifeylərin yaradıcılığı ümumbəşəri ideyaların bərqərar olmasına xidmət etmişdir."

Göründüyü kimi, bu korifeylərin sırasında anadan olmasının 650 illiyi qeyd olunan İmadəddin Nəsimi də vardır.

Ədəbiyyatın və fəlsəfi fikrin inkişafında xidmətləri olmuş görkəmli Azərbaycan şairinə həsr olunan bu dəyərli tədqiqat işi iki fəsildən ibarətdir və İngilis dilinə tərcüməsilə bir kitabdır. Əsərin birinci fəsli "Seyid Nəsiminin irsi elmi tədqiqatlarda" adlanır. Müəllifin qeyd etdiyi kimi, şairin fikir dünyası hələ özünün sağlığında alim və tədqiqatcıların diqqətini cəlb etmişdir.

S.Nemətzadə Nəsimi yaradıcılığının ilk tədqiqatcısının onun muasiri İbn-Həcər əl-Asqalanı olduğunu göstərir. Bir sıra təzkirələrdə şairin vətəni haqqında yanlış, bir-birinə zidd məlumat verildiyinə öz münasibətini bildirən müəllif, şairin yaşadığı dövrün ictimai-siyasi rejiminin bütün maneələrinə baxmayaraq, dogma Azərbaycan dilində yazmasını xususi vurgulayır.

Şairin "Divan"ının XIX-XX əsrlərdə Türkiyə nəşrində bəzən dil-ifadə xususiyyətlərinin pozulduğu, osmanlılaş-dırıldığı Səbirə xanımın nəzərindən qacmamış, XX əsr Azərbaycan alimlərindən Zümrüd Quluzadənin, Zakir Məmmədovun əməyini xususi qeyd etmiş, Ə.Səidzadənin bəzi səhv fikirləri ilə razılaşmamışdır. Ümumiyyətlə müəllifin müstəgil muhakimələri təqdirəlayıqdır, bu da onun Nəsimi irsinə sevə-sevə, daha ciddi, obyetkiv yanaşdığını göstərir. O, yazır: "Hurufilik özü də sufi təriqətidir". Müəllif Nəsimini dinsiz, sufizmə qarşı mübarizə aparan bir şair kimi qələmə verənlərə üzünü tutaraq belə deyir: "Unutmamalıyıq ki, sufizm vahid, butov bir fəlsəfə, dini cərəyan deyildir. Onun içərisində müxtəlif, bir-birinə zidd, hətta bir-birinə qarşı mubarizə aparan təriqətlər də vardır."

S.Nemətzadə yazır: "Mənbələr və faktlar hürufiliyin tarix sahnəsinə çıxmasını XIV əsrlə əlaqələndirsə də, onun daha qədim köklərinin olduğu da qeyd edilməlidir". Müəllif bu hökmünu Alman alimi Annamari Şimmelin fikirləri ilə də əsaslandırır. Alman alimi yazırdı: "Hələ İslamdan qabaqki dövrdə Ərəb şairləri bədənlərinin və ya iqamətqahlarının müxtəlif yerlərini hərflərə bənzədirdilər. İslam şairlərinə miras qalan bu bənzətmələr dünyanın hər tərəfinə yayılmışdı. Buna görə də islam dünyası şeirini sonadək anlamaq üçün həmin hərflərin anlamlarını tam öğrənmək lazımdır".

S.Nemətzadə tədqiqatında hürufilər təqib edildiyindən Nəsiminin səyahətə çixaraq Anadoluya gəlməsi tarixi ilə əlagədar buraxılmış səhvə düzəliş edərək yazır ki, şair Türkiyəyə II Sultan Muradın (1421-1451) deyil, ya I Bəyazidin (1389-1409), ya da atası I Məhmət İsanın (1402-1421) zamanında gələ bilərdi.

Türk alimi Abdulbaqı Gölpınarlının Nəsimini panteist adlandırmasına etirazını bildirən Nemətzadə yazır: "Seyid Nəsiminin dünyagörüşünü panteizm deyil, panenteizm düşüncə tərzi kimi ifadə etmək doğru olardı. Panteizm ilə panenteizm arasındaki fərq budur: "Panteizmdə hər şey Tanrıdır (təbiətdir). Panenteizmdə isə hər şey Tanrıdan südur etmişdir, var olmuşdur. Sufizmdə panenteist goruşlərin əsasını XII əsrdə ibn Ərəbi qoymuşdur".

Tədqiqat işinin ikinci fəsli "Seyid Imadəddin Nəsiminin sufi-panenteist fəlsəfəsi" adlanır. Bu fasildə bir çox tədqiqatçının sufilik haqqında səthi mülahizələri diqqətə çatdırılmış, sufiliyin heç də tərki-dünyaliq, insanların cəmiyyətdən uzaqlaşması, düşgünlüyə, bədbinliyə yönəldən məktəb olmadığı, bu əlamətlərin hərəsinin sufizmin kiçik bir elementini ifadə edən, ayrı-ayrı məgamlarını göstərən atributlar olduğu bildirilmişdir.

S.Nemətzadə bu fəsildə sufi kəlməsinin mənşəyi haqqında Seyid Yəhya Bakuvinin, Şah Nemətullanın (bu alimin nəzəriyyəsinə xüsusi münasibət bildirilir.səh.77), tanınmış sufi Şeyxi Əli Xərəqaninin, Cüneyd Bağdadinın fikirlərini, o cümlədən movlana Cəlaləddin Ruminin "sufilər Allahdan başqa heç bir şeyə inanmırlar" kəlamını xatırladır. Azərbaycan ərazisində sufiliyin dərin köklərindən bəhs edir, Nəsiminin yaradıcılığını başdan-başa sufi motivləri ilə zənginləşdirdiyini vurğulayır.

Müəllifin bu fikirləri də reallığı əks etdirir ki, Nəsimi, əsərlərində insanın ən başlıca xüsusiyyətini özünü dərk etməsində görür. Nəsiminin dünyagörüşü Qədim Şərq, Antik Yunan, habelə orta əsrlərin müxtəlif ideya cərəyanları zəminində yaranıb formalaşmış, Pifagor, Platon, Aristotel, İbn Sina, Həllac kimi alimlərdən təsirlənmiş, eyni zamanda onlarla həmrəy olmadığı barədə muhakimələri olmuşdur. Kitabda "Ənəl-həqq" (Allaham) mənasının "Batil deyiləm" sözünün sinonimi kimi təqdim edildiyini bildiririr.

Bu dəyərli tədqiqat əsərinin elmi redaktoru professor, BDU-nun "Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrasının müdiri Rəbiyyət Aslanova, rəyçiləri professor Azad Nəbiyev və professor İlham Məmmədzadədir.



*Tahirə* Həsənzadə
***tarix elmləri doktoru***